511:1.QXD 28.12.2022 3:09 Page 1

KÜRD DÎPLOMAT

xalqı mübariz və qəhrəman xalqdır.
Heydər Əliyev

№ 47 (511) 18-24 dekabr, Çileya pêş, sal. il 2022
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiyməti: 40 qəpik
Hêjaye:

**Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!**

**Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.**

**Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.**
Səbahəddin Eloğlu

AD GÜNÜNÜZÜ TƏBRİK EDİRİK CƏNAB PREZİDENT!

"Azərbaycan kürdləri" İctimai Birliyinin idarə heyəti və "Diplomat" qəzetinin redaksiya heyəti, Rəşadətli Müzəffər Ordumuzun Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidentini doğum günü və 61 illik yubleyi münasibəti ilə təbrik edir, dövlət başçısına uzun ömür, cansağlığı, siyasi fəaliyyətində uğurlar arzulayır!

Komela Yekitîya Civata "Kurdên Azerbaycanê" û endamên xebatkar û xwandevanên rojnama „Dîplomat„-ê bona rojbûn û 61 salîya Serfermandarê Giştî yê Artêşa Mêrxas, Serok Komarê Azerbaycanê brêz İlham Elîyêv pîroz dikin, jêra cansaxî. emrê dirêj û serkeftinê siyasî hîvî dikin. Her tim serkeftîbe!

Səh. 11

Serok Barzanî: Vekirina beşa zimanê kurdî li Zanîngeha Pekîn pêngavekî giring û dîrokî ye

Səh. 12

Nêçîrvan Barzanî li ser vexwendina Mîrê Qeterê beşdarî fînala Kûpaya Cîhanî dibe



Səh. 4

"Prezident Qərbi Azərbaycana qayıdışın anonsunu verirsə, demək, elə də olacaq"

Səh. 4

Mələhət İbrahimqızı:Dərin mənalı fikirləriniz Qərbi Azərbaycan İcmasının da fəaliyyətinin yol xəritəsidir

Səh. 7

Mesrûr Barzanî û Balyozê Rûsyayê dawî pêşhat û guhertin gotûbêj kirin

Azərbaycanlıların deportasiyası və 1988-ci il faciəsi Səh. 6

Roj ji Rojhelat derdikeve Səh. 12

ŞƏRƏF XAN BİDLİSİNİN "ŞƏRƏFNAMƏ" ƏSƏRİ KÜRD XALQININ TARİXİ MƏNBƏYİ KİMİ Səh. 7

Artêşa Tirkiyê li herêma Besta ya Şirnexê dest bi operasyonê kir Səh. 11

Heyeta Platforma Yekitîya Jinên Kurd Ji Bo Pişgirîyê Seredana PAKê Kir zSəh. 11

Reuters: Запад не рассматривает военный вариант решения ядерной проблемы Ирана Səh. 18

Səh. 5

Ədalətli mövqeyimizi dünyaya çatdırmaqla Qərbi Azərbaycana qayıdışımızı təmin edəcəyik

Səh. 5

Qərbi Azərbaycandan deportasiya beynəlxalq aləmin gözü qarşısında baş verib

Səh. 5

Prezident İlham Əliyevin fikirləri Qərbi Azərbaycan İcmasının yol xəritəsini müəyyənləşdirdi

Səh. 13

Bajarê Amûdê, Şewata Sînemayê, Mihemedê Seîd Axa û Mirina Usivkê Çelebî

511:1.QXD 28.12.2022 3:09 Page 2

Prezident İlham Əliyev Bakı Metropoliteninin “Xocəsən” elektrik deposunun və stansiyasının açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Bakı Metropoliteninin “Xocəsən” stansiyasının və “Xocəsən” elektrik deposunun açılışında iştirak edib.

“Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov Prezident İlham Əliyevə stansiyada və depoda görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Bakı Metropoliteni xətlərinin ümumi uzunluğu 40,7 kilometrdir. Metropolitenin Qırmızı, Yaşıl və Bənövşəyi xətləri üzrə ümumilikdə 27 stansiyası fəaliyyət göstərir.

Xatırladaq ki, 2016-cı il aprelin 19-da Prezident İlham Əliyevin iştirakı ilə Bakı Metropoliteninin üçüncü – Bənövşəyi xəttinin açılışı olub. Bənövşəyi xətt ilə “Avtovağzal” və “Memar Əcəmi” stansiyaları da istifadəyə verilib. Ötən il mayın 29-da isə bu xətt üzrə üçüncü - “8 Noyabr” stansiyasının açılışı olub.

Qeyd olundu ki, “Xocəsən” stansiyası Bənövşəyi xətt üzərində yerləşən dördüncü stansiyadır. Kompleksin ümumi sahəsi 4200 kvadratmetr, stansiya platformasının uzunluğu 144 metrdir. Stansiya Lökbatan qəsəbəsi və “Sədərək” Ticarət Mərkəzi istiqamətindən hərəkət edən vətəndaşların nəqliyyat problemlərinin aradan qaldırılmasında mühüm rol oynayacaq. Bu stansiyada Almaniyanın “ThyssenKrupp Fahrtreppen” şirkətinin istehsalı olan iki eskalator quraşdırılıb. “Xocəsən” stansiyası xəttin başlanğıcında yerləşir və qatarların sərnişinlərin tələbatına uyğun intensiv hərəkətinin təmin edilməsinə şərait yaradacaq. Həmçinin “8 Noyabr” stansiyasının arxasında dönmə kamerası yerləşdiyindən intervalın tənzimlənməsi rahat olacaq.

Məlumat verildi ki, “Xocəsən” elektrik deposu Bakı Metropoliteninin sayca ikinci deposudur və 24 hektardan çox ərazini əhatə edir. Üç mərhələdən ibarət inşaat layihəsinin hazırda birinci mərhələsi istifadəyə verilib.

“Xocəsən” elektrik deposunda iki içməli su anbarı, iki yanğın su anbarı, üç baxış qanovu və xidməti otaqlar, qatarların hərəkətini idarə etmək üçün blokpost, elektrik yarımstansiyası, təmir və texniki baxış infrastrukturu yaradılıb.

Daha iki mərhələ üzrə işlər xəttin yeni stansiyaları və tunelləri inşa olunduqca tələbata uyğun görüləcək. Belə ki, ikinci mərhələ üzrə hərəkət qatarına xidmət üçün məişət otağı ilə dayanma korpusu, qatarların yuyulması kamerası, təkərlərin diaqnostika kompleksi, yanacaqsürtkü materialları anbarı, dönmə qurğuları, kompressor stansiyası, təmir-dayanacaq binası üçün qazanxana inşa olunacaq. Üçüncü mərhələdə isə vaqonların təmiri və istehsalı korpusu, inzibati və məişət binaları, dispetçer idarəetmə məntəqəsi və vaqon təmiri binaları üçün qazanxana, qaldırıcı kran estakadası ilə texnoloji platformanın tikintisi nəzərdə tutulur.

Qeyd edək ki, ölkəmizdə müasir infrastrukturun qurulması bütün sahələri, o cümlədən nəqliyyatın əhəmiyyətinin xüsusilə artdığı indiki dövrdə metropoliteni də əhatə edir. Hazırda Bakı Metropoliteninin konseptual inkişaf proqramına uyğun olaraq işlər sürətlə davam etdirilir. Proqrama əsasən, perspektivdə metronun stansiyalarının sayı 76-ya çatdırılacaq.

Prezident İlham Əliyev Özbəkistanın Baş nazirinin müavinini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Özbəkistan Respublikasının Baş nazirinin müavini, investisiya və xarici ticarət naziri Cəmşid Xocayevi qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı baxımından 2022-ci ilin də çox uğurla başa çatdığını bildirərək bu il Özbəkistana 3 dəfə səfər etdiyini xatırlatdı. Prezident İlham Əliyev bu səfərlər zamanı keçirilən görüşlərdə əməkdaşlığımızın genişlənməsi ilə bağlı müəyyən edilmiş bütün sahələr üzrə qarşıya qoyulan məqsədlərə çatmaqdan məmnunluğunu ifadə etdi və 2023-cü ildə də əlaqələrimizin inkişaf dinamikasının saxlanılacağına əminliyini bildirdi. Dövlətimizin başçısı sənaye, kənd təsərrüfatı, hərbi-texniki, nəqliyyat, təhsil sahələrində və digər sahələrdə əməkdaşlığın gələcək inkişafı üçün yaxşı zəmin yaradıldığını vurğuladı.

Cəmşid Xocayev, ilk növbədə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və ad günü münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırdı, Azərbaycan və Özbəkistan dövlət başçıları arasında şəxsi əlaqələrin münasibətlərimizin inkişafında rolunu xüsusi olaraq qeyd etdi, belə bir əlamətdar gündə Azərbaycan Prezidentinin qəbulunda olmaqdan böyük şərəf hissi duyduqlarını dedi.

Prezident İlham Əliyev salamlara və təbrikə görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi.

Torpaqlarımızın işğaldan azad edilməsi və Vətən müharibəsində əldə olunan Qələbə münasibətilə dövlətimizin başçısını təbrik edən Cəmşid Xocayev vurğuladı ki, bu, bütün Türk dünyasının Qələbəsidir. Qonaq dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın iqtisadi inkişafını və əldə etdiyi nailiyyətləri xüsusi qeyd etdi.

Görüşdə ikitərəfli münasibətlərin inkişafı barədə fikir mübadiləsi aparıldı, ticarət dövriyyəsinin artdığı qeyd olundu, birgə investisiya fondunun yaradılması istiqamətində dövlət başçıları arasında müvafiq razılığa əsasən həyata keçirilən iş barədə danışıldı.

Söhbət zamanı nəqliyyat, istehsalat kooperasiyası, energetika, yüngül sənaye, xüsusilə ipəkçilik və pambıqçılıq sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu.

Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsini qəbul edib

Dekabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin olunmuş Fuad Nəcəfli-ni qəbul edib və ona müvafiq tapşırıqlarını verib.

Qəbulda Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına göstərdiyi daimi diqqəti sayəsində və birbaşa tapşırığı ilə həyata keçirilən genişmiqyaslı işlər, o cümlədən böyük infrastruktur layihələrinin həyata keçirilməsi, Naxçıvanda qazlaşdırmanın 100 faiz səviyyəsində təmin edilməsi, enerji təchizatı, müasir yolların inşa olunması, səhiyyə və təhsil obyektlərinin tikintisi, yeni iş yerlərinin yaradılması istiqamətində görülən işlər qeyd olunub.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasına hər il dövlət büdcəsindən böyük həcmdə dotasiya ayrılıb.

Prezident İlham Əliyev tapşırıq verib ki, səlahiyyətli nümayəndə kimi Fuad Nəcəfli insanların qayğısına qalınması, korrupsiya, rüşvətxorluqla mübarizə, şəffaflıq, düzgün kadr siyasətinin həyata keçirilməsi, mərkəzi icra orqanları ilə sıx təmasda fəaliyyətlə bağlı bütün səylərini göstərsin.

Fuad Nəcəfli ona göstərilən yüksək etimada görə dövlətimizin başçısına təşəkkürünü bildirib və Prezident İlham Əliyevi əmin edib ki, bütün fəaliyyət dövlətimizin başçısının siyasəti üzərində aparılacaq, ölkə miqyasında həyata keçirilən genişmiqyaslı islahatların Naxçıvan Muxtar Respublikasında da təmin edilməsi işində səylərini əsirgəməyəcək.

511:1.QXD 28.12.2022 3:09 Page 3

TƏBRİK EDİRİK!

Dekabrın 24-ü Azərbaycan prezidenti İlham Əliyevin doğum günüdür. Dövlət başçısının 61 yaşı tamam olur.

İlham Heydər oğlu Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olub. Orta təhsilini 1967-1977-ci illərdə Bakı şəhərində alan İlham Əliyev 1977-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutuna (MDBƏİ - MQİMO) daxil olub, ali təhsilini müvəffəqiyyətlə başa vuraraq elmi fəaliyyətini institutun aspiranturasında davam etdirib.

1985-ci ildə dissertasiya müdafiə edən İlham Əliyev tarix elmləri namizədi alimlik dərəcəsi alıb və 1990-cı ilədək MDBƏİ-də müəllim işləyib. 1994-2003-cü illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti vəzifəsində çalışıb.

1995-ci və 2000-ci illərdə Milli Məclisə üzv seçilən İlham Əliyev 2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan nümayəndə heyətinin rəhbəri olub. AŞPA-da siyasi fəaliyyəti çərçivəsində 2003-cü ilin yanvar ayında qurumun sədr müavini və Büro üzvü seçilib. 2003-cü ildə baş nazir vəzifəsinə təyin edilməsi ilə əlaqədar İlham Əliyevin deputat səlahiyyətlərinə xitam verilib. 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının prezidenti seçilib və oktyabrın 31-də vəzifəsinin icrasına başlayıb. 2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88 faizindən çoxunun səsini qazanan İlham Əliyev yenidən Azərbaycan Respublikasının prezidenti seçilib.

2013-cü il oktyabrın 9-da və 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində isə növbəti dəfə qələbə qazanıb.

Qeyd edək ki, İlham Əliyev həmçinin 1997-ci ildən Azərbaycanın Milli Olimpiya Komitəsinin prezidentidir. İdmanın və Olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilib.

Azərbaycan, rus, ingilis, fransız və türk dillərini mükəmməl bilir.

Evlidir. Üç övladı var.

“Azərbaycan kürdləri” İctimai Birliyinin idarə heyəti və “Diplomat” qəzetinin redaksiya heyəti Azərbaycan Prezidenti cənab İlham Əliyevi doğum günü münasibətilə təbrik edir, dövlət başçısına uzun ömür, cansağlığı, fəaliyyətində uğurlar arzulayır!

Hörmətlə: “Azərbaycan kürdləri” İctimai Birliyinin idarə heyəti və “Diplomat” qəzetinin redaksiya heyəti adından Tahir Süleyman

Dünya liderləri Prezident İlham Əliyevi təbrik edirlər

Dekabrın 23-də Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında Emmanuel Makron Ermənistan və Azərbaycan arasındakı münasibətlərə, həmçinin Azərbaycanın Laçın rayonundan keçərək Xankəndi şəhərinə gedən yoldakı vəziyyətə toxunub.

Dövlətimizin başçısı Azərbaycanın Laçın rayonundan keçərək Xankəndi şəhəri istiqamətində olan yoldakı vəziyyətlə bağlı qeyd edib ki, Azərbaycanın vətəndaş cəmiyyəti nümayəndələri Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərimizdə faydalı qazıntı yataqlarının qanunsuz istismarına və bunun nəticəsində ətraf mühitə ciddi zərər vurulmasına etiraz edirlər.

Prezident İlham Əliyev Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərimizdə yaşayan sakinlərin bu yoldan mülki və humanitar məqsədlər üçün istifadəsinə maneənin olmadığını, başqa təsisatlara lüzum olmadan Beynəlxalq Qırmızı Xaç Komitəsinin yerli ofisinin xətti ilə tibb maşınlarının keçidlərinin təmin edildiyini vurğulayıb.

Dövlətimizin başçısı vətəndaş cəmiyyəti nümayəndələrinin əsas tələbinin faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması və ərazidə ekoloji monitorinq fəaliyyətinin aparılmasının təmin edilməsi olduğunu bildirib.

Söhbət əsnasında Prezident İlham Əliyev, həmçinin Ermənistanın Azərbaycana məxsus 8 kəndi hələ də işğal altında saxladığını qeyd edib.

Emmanuel Makron Fransanın Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına, sülh müqaviləsi üzrə danışıqların davam etdirilməsinə dəstək verməyə hazır olduğunu bildirib.

Prezident İlham Əliyev regional məsələlərə münasibətdə tarazlı və qərəzsiz davranışın vacibliyinə toxunaraq, Frankofoniya və bəzi başqa beynəlxalq təşkilatlarda Azərbaycan əleyhinə fəaliyyətlərin təəssüf doğurduğunu diqqətə çatdırıb.

Dekabrın 24-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Salim bin Məhəmməd əl-Maliki dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, Azərbaycanın inkişafı naminə prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə ICESCO-nun Baş direktoruna minnətdarlığını bildirib.

Telefon danışığı əsnasında Azərbaycanla ICESCO arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunub.

Dövlətimizin başçısı ərazilərimizin işğalı zamanı və işğaldan azad olunmasından sonra Azərbaycanın ədalətli mövqeyinin davamlı dəstəklənməsi və işğal dövründə ermənilərin torpaqlarımızda tarixi-mədəni abidələrimizi dağıtmaları barədə faktların dünya ictimaiyyətinin diqqətinə çatdırılması ilə bağlı ISESCO-nun və şəxsən Salim bin Məhəmməd əl-Malikinin fəaliyyətini yüksək qiymətləndirib.

Prezident İlham Əliyev Salim bin Məhəmməd əl-Malikinin işğaldan azad edilmiş ərazilərimizə etdiyi səfərə görə də bir daha minnətdarlığını bildirib.

Dövlətimizin başçısı və ICESCO-nun Baş direktoru əməkdaşlığın bundan sonra da genişlənləcəyinə əminliklərini ifadə ediblər.

Salim bin Məhəmməd əl-Maliki Prezident İlham Əliyevi ICESCO-nun mənzil-qərargahına səfərə dəvət edib.

Dövlətimizin başçısı dəvəti minnətdarlıqla qəbul edib və öz növbəsində Salim bin Məhəmməd əl-Malikini ölkəmizə səfərə dəvət edib.

ICESCO-nun Baş direktoru dəvəti məmnunluqla qəbul edib və təşəkkürünü bildirib.

Dekabrın 24-də Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Sadır Japarov Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, ölkəmizin inkişafı naminə fəaliyyətində ona uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Qırğızıstan Prezidentinə təşəkkürünü bildirib.

Telefon söhbəti zamanı 2022-ci ildə dostluq və qardaşlıq münasibətlərinin uğurlu inkişafından məmnunluq ifadə edilib, bu il Qırğızıstan Prezidentinin Azərbaycana rəsmi səfərinin, Azərbaycan Prezidentinin isə Qırğızıstana dövlət səfərinin əlaqələrimizin genişlənməsinə verdiyi töhfə vurğulanıb. Prezident İlham Əliyev dövlət səfəri zamanı nümayiş etdirilən yüksək qonaqpərvərliyə və səmimi dostluq münasibətinə görə Sadır Japarova bir daha minnətdarlığını bildirib.

Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Kasım-Jomart Tokayev Prezident İlham Əliyevi doğum günü münasibətilə səmimi-qəlbdən təbrik edib, ona cansağlığı və ali dövləti fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Qazaxıstan Prezidenti qardaş Azərbaycan ilə dostluq və mehriban qonşuluq ruhunda əməkdaşlığın daha da inkişaf etdirilməsi kursuna qəti sadiqlik ifadə edib.

Söhbət zamanı Qazaxıstan-Azərbaycan strateji tərəfdaşlığının dinamik inkişafı qeyd olunub.

Dövlət başçıları qarşılıqlı ticari-iqtisadi və mədəni-humanitar fəaliyyətin dərinləşdirilməsinə dair daha əvvəl əldə edilmiş razılaşmaların həyata keçirilməsinin gedişini yüksək qiymətləndiriblər.

Dekabrın 24-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Şavkat Mirziyoyev dövlətimizin başçısına ad günü münasibətilə təbriklərini çatdırıb, xalqımızın rifahı naminə fəaliyyətində ona uğurlar, möhkəm cansağlığı arzulayıb. Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Özbəkistan Prezidentinə minnətdarlığını bildirib. Telefon söhbəti zamanı ikitərəfli dostluq və qardaşlıq münasibətlərimizin bu il də uğurla inkişaf etdiyi vurğulanıb, yüksək səviyyəli qarşılıqlı səfərlərin, o cümlədən Azərbaycan Respublikası Prezidentinin Özbəkistana bu il ərzində 3 səfərinin əlaqələrimizin möhkəmlənməsində rolu xüsusi qeyd edilib, görüşlər zamanı əldə olunmuş razılıqların həyata keçirilməsindən məmnunluq bildirilib, əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi doğum günü münasibətilə səmimi-qəlbdən təbrik edib.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Söhbət əsnasında Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli razılaşmalarının həyata keçirilməsinin bəzi praktiki, o cümlədən Azərbaycan-Ermənistan sərhədində təhlükəsizliyin təmin edilməsi ilə bağlı məsələlərinə də toxunulub.

511:1.QXD 28.12.2022 3:09 Page 4

Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan.

Sizi doğum gününüz münasibətilə təbrik edir, Uca Allahdan Sizə və ailənizə möhkəm cansağlığı, gələcək fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

Möhtərəm prezident Vətənimizin ərazi bütövlüyü uğrunda yorulmadan göstərdiyiniz fədakar fəaliyyətinizdə yeni uğurlar arzulayır,

vətəndaş olaraq Sizə dərin təşəkkürümü bildirirəm. Doğma Qarabağımızı millətimizə bəxş etdiyinizə, dədə-baba torpaqlarımızı öz həqiqi sahiblərinə qaytardığınız üçün Sizə sonsuz minnətdarıq.

Cənab Prezident Qarabağın azadlığı xoşbəxtliyini Siz bizə yaşatdınız.

Qədirbilən xalqımız hər zaman sizin ətrafınızda sıx birləşib. Sizin yürütdüyünüz siyasəti dəstəkləyir və sizə sonsuz sevgi hissi duyurlar. Cənab Prezident Sizə bundan sonrakı fəaliyyətinizdə də uğurlar arzulayır, dövlətimizin var olması naminə möhkəm cansağlığı diləyirik!

Tanrı Sizi qorusun.

Hörmətlə,

Müşfiq Məmmədli, Milli Məclisin deputatı

"Prezident Qərbi Azərbaycana qayıdışın anonsunu verirsə, demək, elə də olacaq"

"Cənab İlham Əliyevin Qərbi Azərbaycana qayıdacağımızla bağlı son açıqlaması Gürcüstanın keçmiş Prezidenti Mixeil Saakaşvilinin 2021-ci ildə Ukraynanın televiziyalarından birində işğal altındakı torpaqlarımızı necə azad etdiyimizə aydınlıq gətirərkən danışdıqlarını yadıma saldı. Saakaşvli bildirirdi ki, bir dəfə Strasburqdan Azərbaycan Prezidenti ilə birgə geri dönürlərmiş və o, Abxaziyanın üstündən uçanda oranı aydın görmək üçün təyyarənin bir az aşağı enməsini xahiş edib. Cənab İlham Əliyev isə ona işğal altındakı torpaqlarımızı azad etmək üçün hələ bir neçə il gözləmək lazım gəldiyini, amma bu yöndə dayanmadan çalışmalı, çalışmalı və çalışmalı olduğumuzu deyib. Yəni Saakaşvilinin diqqətinə çatdırılıb ki, burada sentimentallıq olmamalıdır, biz öz torpaqlarımızı təyyarənin illüminatorundan izləmək yox, geri qaytarmaq, üzərində gəzmək haqda düşünməli, qarşımıza ancaq bunu məqsəd qoymalı və heç bir tərəddüd etmədən ona doğru irəliləməliyik".

Bu barədə millət vəkili, politoloq Sahib Alıyev bildirib.

O qeyd edib ki, cənab Prezidentin işğal altındakı torpalqarımızı qaytarmaqla bağlı o zaman Saakaşviliyə söylədikləri nəzəri baxımdan düz təsir bağışlasa da, reallşadırılması müşkül və hətta mümkünsüz görünüb. Lakin dövlətimizin başçısı göstərib ki, böyük güclər, yırtıcı dövlətlər əleyhinə olduğu halda belə, qarşına qoyduğun məqsədə çatmaq mümkündür: "İndi həmən şəxs öz doğum günündə böyük əminliklə bizim Ermənistan adlanan dədə-baba torpaqlarımıza qayıdacağımızın anonsunu verirsə, demək, elə də olacaq. Axı bunu elə-belə adam yox, özü də xatırlatdı, torpaqlarımız hələ işğal altında olduğu zaman doğum günlərində Qarabağdan və Şərqi Zəngəzurdan didərgin düşən soydaşlarımıza baş çəkərək onların tezliklə öz yurd yerlərinə dönəcəklərini vəd edən və bunu reallşadıran bir lider bildirir".

Millət vəkilinin sözlərinə görə, Qərbi Azərbaycana qayıtmaq üçün də Prezidentimizin təbirincə desək, çalışmaq, çalışmaq və çalışmaq lazımdır: "Özəlliklə də o torpaqlardan olanlar hindlilərin bir məsəli var ondan çıxış etməlidirlər. Həmən məsəldə deyilir ki, torpaq bizə babalarımızdan qalan miras deyil, uşaqlarımıza borcumuzdur. Yəni mirasla necə istəyirsən davrana bilərsən, borcu isə qaytarmaq lazımdır. Və torpaq borcu elə borcdur ki, onu qaytarmamaq son nəfəsində də sənə halal edilə bilməz, edilməməlidir də".

Məlahət İbrahimqızı:Dərin mənalı fikirləriniz Qərbi Azərbaycan İcmasının da fəaliyyətinin yol xəritəsidir

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olub və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşüb.

"Yeni Gundem" Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızının çıxışını təqdim edir: – Zati-aliləri, möhtərəm cənab Prezident.

İcazə verin, Sizi Qərbi Azərbaycan İcmasının Qadınlar Şurası və erməni təcavüzü nəticəsində öz doğma torpaqlarından didərgin düşmüş çoxsaylı qaçqın bacı və analarımız adından salamlayım. Bu ali məclisdə çıxış etmək sözsüz ki, mənim üçün böyük şərəfdir, amma Sizin, Zati-alinizin, Müzəffər Ali Baş Komandanın qarşısında çıxış etmək bir o qədər çətin və məsuliyyətlidir.

Möhtərəm cənab Prezident, Azərbaycan xalqı hələ də Müzəffər Sərkərdəliyinizlə 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfərin tükənməz sevincini yaşayır və bundan sonra da daim bu sevinclə yaşayacaq. Sizin sarsılmaz və qətiyyətli siyasi iradənizin rəmzi olan və dünya hərb tarixinə "Dəmir yumruq" əməliyyatı kimi yazılmış Vətən müharibəsində rəşadətli milli Ordumuzun qəhrəmanlığı və xalqımızın

milli birliyi ilə bir neçə əsrlik tarixi olan dünya erməniliyi əbədi məğlubiyyətə düçar oldu və 30 il düşmən tapdağında olan Qarabağ azad edilərək, məcburi köçkün soydaşlarımızın doğma yurdlarında hüquqları bərpa olundu.

Qürur hissi ilə deməliyik ki, gələcək nəsillər üçün tükənməz mənəvi sərvət olan bu Zəfərlə Siz tarixi ədaləti bərpa etdiniz, xalqımızı dünyaya qalib, şərəfli və qürurlu məğlubedilməz bir xalq kimi tanıtdınız. Sizə sonsuz təşəkkür edirik, möhtərəm cənab Prezident.

Minnətdarlıqla deməliyik ki, Sizin fəaliyyətiniz boyu Azərbaycanın milli maraqları naminə qəbul etdiyiniz qərarlar xalqımızın rifahını, dövlətimizin güc və nüfuzunu dünyada ildən-ilə daha da artırır.

Ulu Öndərimiz Heydər Əliyevin bütün vəsiyyətlərini sədaqətlə həyata keçirərək, müasir dövrün çağırışlarına cavab verən uzaqgörən siyasətiniz sayəsində və zəngin dövlət idarəetmə təcrübənizlə Azərbaycan bu gün tarixinin intibah dövrünü yaşayır. Ötən illər ərzində Siz təkcə Qarabağ uğrunda mübarizə aparmadınız, ən mötəbər kürsülərdə, ən mürəkkəb məqamlarda İrəvanın, Zəngəzurun və Göyçənin Azərbaycanın tarixi torpaqları olduğunu və Azərbaycan xalqının bu tarixi ədalətsizliklə heç vaxt barışmayacağını dünyaya bəyan etdiniz.

Müdrikliklə səsləndirdiyiniz və bu gün dillər əzbəri olan "nəyi, necə və nə vaxt etmək lazımdır… bunu mən bilirəm" kimi dərin mənalı fikirləriniz Qərbi Azərbaycan İcmasının da fəaliyyətinin yol xəritəsidir.

Həyata keçirdiyiniz məqsədyönlü siyasətin nəticəsidir ki, Qarabağın azad olunması uğrunda bir yumruq olan dünya azərbaycanlıları zaman-zaman etnik təmizləməyə, soyqırımına, deportasiyaya məruz qalmış minlərlə qaçqın soydaşımızın tarixi Azərbaycan torpaqları üzərində itirilmiş hüquqlarının bərpası üçün Müzəffər Ali Baş Komandanın əmrini gözləyir. Əminik ki, Sizin prinsipiallığınız, müdrik və uzaqgörən diplomatiyanızla, dövlətimizin gücü və milli birliyimizlə xalqımız haqlı mübarizəsində öz məqsədinə qovuşacaq.

Möhtərəm cənab Prezident, özümə borc bilərək, böyük ehtiramla deməliyəm ki, respublikamızın Birinci vitse-prezidenti möhtərəm Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti və uğurlu mədəniyyət diplomatiyası ilə xalqımızın qədim, eləcə də ümumtürk və ümumbəşər mədəniyyətinə çoxsaylı töhfələr bəxş olunub və Azərbaycan bu gün bu qədim və zəngin mədəniyyəti ilə dünyanın tolerantlıq mərkəzi kimi təbliğ edilir və təqdir edilir.

Ərazi bütövlüyümüz və torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizin ailələrinə, qazilərə və müharibə veteranlarına göstərilən ən yüksək dövlət qayğısı məhz Sizin və möhtərəm Mehriban xanım Əliyevanın nəcib və humanist əməllərinizin sübutudur. Möhtərəm cənab Prezident, Azərbaycan xalqı qarşısında misilsiz və fədakar xidmətlərinizlə Siz bugünkü və gələcək nəsillər üçün örnək olmaqla, dünya azərbaycanlılarının, eləcə də hər bir Qərbi azərbaycanlının iftixarı, qüruru, dayağı və güvənc yerisiniz.

Bu ali məclisdə Sizi bir daha əmin etmək istərdik ki, Qərbi Azərbaycan İcmasının, eləcə də İcmanın Qadınlar Şurasının hər bir üzvü Sizin müqəddəs siyasi kursunuzu var qüvvəsi ilə dəstəkləyəcək və qəsb edilmiş tarixi Azərbaycan torpaqları üzərində xalqımızın itirilmiş hüquqlarının bərpası yolunda müsəlləh əsgəriniz olacaq. Diqqətinizə görə çox sağ olun. Allah Sizi qorusun! Allah Sizin ailənizi qorusun!

511:1.QXD 28.12.2022 3:09 Page 5

Ədalətli mövqeyimizi dünyaya çatdırmaqla Qərbi Azərbaycana qayıdışımızı təmin edəcəyik

Qərbi Azərbaycan azərbaycanlıların tarixi və əzəli torpağıdır. Burada yaşayan azərbaycanlılar zaman-zaman

etnik təmizlənməyə məruz qalmış, öz doğma torpaqlarından didərgin düşməyə məcbur edilmişdir. Son etnik təmizləmə 1988-1991-ci illərdə baş vermişdir. Ermənilər düşünülmüş şəkildə 300 minə yaxın azərbaycanlını öz doğma yurdlarından deportasiya etməklə Ermənistanı monoetnik ölkəyə çeviriblər. Onlar azərbaycanlıların yaşadıqları yaşayış məntəqələrini qarət etmiş, dağıtmış və xarabalığa döndərmişlər. Soydaşlarımızın tərk etdikləri yaşayış məntəqələrinin əksəriyyətində indi yaşayış yoxdur və xarabalığa çevrilmiş şəkildə qalmaqdadır. Bu, o deməkdir ki, Qərbi Azərbaycan özünün əzəli sakinlərinin yolunu gözləyir. Xalqımız öz doğma diyarı olan Qərbi Azərbaycanı heç vaxt unutmur və geriyə, öz doğma yurdlarına qayıtmaq arzusu ilə yaşayır. Qarabağı düşmən işğalından azad etməyimizdən sonra heç oranı görməyən azərbaycanlıların öz doğma yurdlarına qayıtmağına olan ruh yüksəkliyi bu fikri söyləməyimizə imkan verir. Bu bölgənin bütün nümayəndələri doğma yurdlarına qayıtmağı səbirsizliklə gözləyirlər.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib.

Prezident İlham Əliyevin öz xalqını, Vətənini və torpağını sevən ölkə rəhbəri olduğunu vurğulayan deputat bildirib: "Dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycan qalib ölkəyə çevrilib, uzun illər ermənilər tərəfindən işğala məruz qalmış torpaqlarımız özümüzə qaytarılıb. Torpaqlarımız erməni işğalı altında olduğu dövrdə, yəni, 2010-cu ildə Prezident İlham Əliyev Qarabağ icmasının binasının açılışı zamanı qeyd etmişdi: "Bu, sizin üçün müvəqqəti bir qərargahdır. Torpaqlarımız işğalçılardan azad olunandan sonra sizin üçün yeni gözəl binalar Qarabağda tikiləcəkdir. Mən buna şübhə etmirəm və tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, bu ədalətsizliyə son qoyulacaqdır". Ölkəmizin beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyü bərpa olunacaqdır". Artıq bu məsələ həllini tapdı. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Ordumuz 44 gündə ermənilərin 30 illik işğalına son qoyaraq ölkəmizin ərazi bütövlüyünü təmin etdi. Bu gün isə işğaldan azad edilən ərazilərimiz yenidən qurulub bərpa olunur, oraya Böyük Qayıdış həyata keçirilir. Vaxtilə öz doğma yurdlarından qaçqın düşmüş vətəndaşlarımızın mərhələli şəkildə yurdlarına qaytarılmasına başlanılıb. Prezident İlham Əliyev keçmiş məcburi köçkünlərimizin arzularını reallaşdırır və ermənilərin 30 ildə xaraba qoyduğu yurd yerlərimiz bərpa edilərək yenidən cənnətə çevrilir".

İndiki hədəfimizin tarixi torpağımız Qərbi Azərbaycana qayıtmaq olduğunu xatırladan deputat qeyd edib ki, Prezident İlham Əliyev dekabrın 24-də Qərbi Azərbaycan İcması üçün inzibati binasında yaradılmış şəraitlə tanış olduqdan sonra Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşərək onların qarşısına mühüm vəzifələr qoydu. Əslində, bu vəzifələr qaçqınlarımızın doğma yurdlarına qayıtmaları üçün müəyyən olunmuş yeni hədəflərdir. Bu mənzil-qərargah Qərbi Azərbaycanın tarixini və azərbaycanlıların üzləşdiyi ədalətsizlikləri və fəlakətləri dünya ictimaiyyətinə tanıtmaq baxımından mərkəz rolunu oynayacaq. Qərbi Azərbaycanda ermənilərin törətdikləri vandallıqları, tarixi, dini və mədəni abidələrin necə məhv edildiyini dünya ictimaiyyəti bilməlidir. Biz öz ədalətli mövqeyimizi dünyaya çatdırmaqla Qərbi Azərbaycana qayıdışımızı təmin etməliyik. Dövlətimizin başçısının qeyd etdiyi kimi, Aprel əməliyyatından sonra artıq Naxçıvan dağlarını, məcburi köçürülmüş yaşayış məntəqələrimizi binoklsuz görə bilirik. Təbii ki, bu başlanğıcdır. Hədəf isə Qərbi Azərbaycana qayıtmaqdır.

"Prezident İlham Əliyevin dediyi hər bir söz real həyatda öz əksini tapıb. Hesab edirəm ki, Qərbi Azərbaycana qayıtmağımıza da çox az qalıb. Ona görə də Qərbi Azərbaycan İcması üçün müasir şəraitli inzibati binanın istifadəyə verilməsi və burada məqsədyönlü fəaliyyətə başlanılması gələcək hədəflərimizə çatmaq üçün çox əhəmiyyətli olacaq", - yə A.Badamov diqqətə çatdırıb.

Qərbi Azərbaycandan deportasiya beynəlxalq aləmin gözü qarşısında baş verib

Qərbi Azərbaycan məsələsi bu gün dünyanın nə qədər ədalətsiz olduğunu göstərən növbəti faktlardan biridir. Təəssüf ki, XX əsr boyu azərbaycanlıların deportasiyası və Qərbi Azərbaycandan didərgin salınmaları beynəlxalq aləmin gözü qarşısında baş verib. Azərbaycan əleyhinə informasiya terroru həyata keçirənlər Qərbi

Azərbaycanda xalqımızın yaşadığı faciələri görməzdən gəlirlər. Eyni zamanda, əsr boyunca azərbaycanlıların tarixi torpaqlarımızdan çıxarılmağı Ermənistanın faşist niyyətlərini daha da alovlandırdı. Hazırda Qərbi Azərbaycanda abidələrimiz, dini tikililər kütləvi şəkildə Ermənistanın terroruna məruz qalır. Vandal Ermənistandan fərqli olaraq Azərbaycan Qərbi Azərbaycana topla, tüfənglə qayıtmayacaq. Prezident İlham Əliyev Qərbi Azərbaycana qayıdışın konturlarını dəqiq müəyyənləşdirib. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin (STM) sektor müdiri, politoloq Tural İsmayılov söyləyib. O bildirib ki, Qərbi Azərbaycan İcmasının binasının açılışı siyasi, tarixi və rəmzi məna daşıyır. Bu binanın əvvəllər Qarabağın Azərbaycanlı İcmasına məxsus olması xüsusi əhəmiyyətə malikdir. Qarabağı işğaldan azad edən Azərbaycan xalqı tarixi Qərbi Azərbaycan torpaqlarında öz yurd-yuvasına da geri dönüş edəcək.

2010-cu il iyulun 6-da Qarabağın azərbaycanlı icmasının mənzil-qərargahının açılışında çıxış edən Prezident İlham Əliyev deyib: "Bu, sizin üçün müvəqqəti bir qərargahdır. Torpaqlarımız işğalçılardan azad olunandan sonra sizin üçün yeni gözəl binalar Qarabağda tikiləcəkdir. Mən buna şübhə etmirəm və tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, bu ədalətsizliyə son qoyulacaqdır. Ölkəmizin beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyü bərpa olunacaqdır". Bugünkü reallıq ölkə Prezidentinin sözlərinin həqiqətə çevrildiyini göstərir. Ona görə də Prezident İlham Əliyevin doğum günündə növbəti dəfə Qərbi Azərbaycanla bağlı verdiyi mesajlar bütün xalqımız üçün həm də bir siqnaldır. Qərbi Azərbaycan məsələsinin aktual qalmağı üçün hər bir vətəndaşımız, xaricdəki soydaşlarımız daim dinamik fəaliyyət göstərməlidirlər.

"Bundan sonra Qarabağın Azərbaycanlı İcmasının binası Qərbi Azərbaycan İcmasının binası kimi fəaliyyətini davam etdirəcək. Bu, həm rəmzi məna daşıyır, həm də Azərbaycanın bütün bölgədə yaratdığı yeni reallıqları və hədəfləri ifadə edir. Qərbi Azərbaycan məsələsi növbəti tarixi dövr üçün ölkəmizin gündəminə ən mühüm, ərazilərimizin işğaldan azad edilməsi kimi taleyüklü bir məsələ ilə birlikdə daxil olur. Bütün vətəndaşlarımız Qərbi Azərbaycana mütləq qayıdacağımızın fərqindədirlər və dövlətimizin yanındadırlar", - deyə Tural İsmayılov diqqətə çatdırıb.

Prezident İlham Əliyevin fikirləri Qərbi Azərbaycan İcmasının yol xəritəsini müəyyənləşdirdi

Dekabrın 24-də Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının inzibati binasının açılışında ölkəmizin ictimai-siyasi həyatında fəal iştirakı ilə tanınan bir qrup insanla görüşdü. Görüşdə dövlətimizin başçısının söylədiyi nitqdəki hər bir fikrinin arxasında böyük bir proqram dayanır. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Məlahət İbrahimqızı ifadə edib.

Deputat bildirib ki, dekabrın 16-dan bəri Xankəndi-Laçın yolunda azərbaycanlı ekofəalların keçirdiyi mitinqlər dünya ictimaiyyətinin də diqqətindədir. "Həqiqətən də biz ekofəalların, vətəndaş cəmiyyəti nümayəndələrinin aksiyasını çox yüksək dəyərləndiririk. Bu mənada, Prezident İlham Əliyevin çıxışında düşündürən bir məsələ varsa, o da Qarabağ məsələsinin tamamilə tənzimlənməsi və bitməsidir. Amma bəzi məsələlər var ki, onlar - Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması, Azərbaycanın ayrılmaz parçası olan, ölkəmizin beynəlxalq ictimaiyyət tərəfindən tanınmış ərazilərində baş verən vəhşiliklər sona yetməyib", - deyə M.İbrahimqızı əlavə edib. O qeyd edib ki, bütün bunlar bizim təbii hüquqlarımızdır. Bilirik ki, sülh sazişi imzalanarsa, məsələlər öz həllini taparsa və ən vacibi, Zəngəzur dəhlizi açılarsa, bölgədəki normallaşma prosesi demək olar öz qaydasına düşəcək. Prezident İlham Əliyev çıxışında vurğuladı ki, bölgədə sabitliyin olmamasında maraqlı ölkələr sırasında Ermənistan öndə gedənlərdən deyil. Bu bölgədəki vəziyyəti ağırlaşdıran, yenidən alovlandırmağa çalışan bir çox digər ölkələr var.

"Prezident İlham Əliyev illər boyu fəaliyyətində təkcə Qarabağ uğrunda mübarizə aparmayıb, ən mötəbər tədbirlərdə, ən mürəkkəb vəziyyətlərdə heç kimdən çəkinmədən dünyaya bəyan edib ki, İrəvan, Zəngəzur, Göyçə Azərbaycan torpaqlarıdır. Necə ola bilər ki, biz 1991-1993-cü illərdə işğal olunmuş torpaqlarımızı erməni işğalından azad edək, ancaq ondan bir neçə il əvvəl tarix boyu Azərbaycanın dədə-baba yurdu olan Zəngəzur, Göyçə, İrəvan qaytarılmasın? 1988-1991-ci illərdə azərbaycanlılar Qərbi Azərbaycanda 170 kənddən deportasiyaya məruz qalıblar. Azərbaycan xalqının tarixi torpaqlarında – Qərbi Azərbaycanda ermənileşdirmə siyasəti aparılıb. Prezident İlham Əliyev bunu çox qətiyyətlə vurğuladı və dedi ki, biz o torpaqları toptüfənglə almaq niyyətində deyilik, ancaq o ərazilərdən deportasiya olunmuş soydaşlarımızın hüquqlarının tam bərqərar olunması üçün nə lazımdırsa edəcəyik. Bunu bütün dünya bilməlidir", - deyə deputat vurğulayıb.

Məlahət İbrahimqızı diqqətə çatdırıb ki, Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının yol xəritəsini daha detallı müəyyən etdi. Dövlətimizin başçısı tapşırıqlarını verdi ki, bu İcma həm ölkə daxilində, həm də xaricdə, beynəlxalq təşkilatlarda böyük əks-səda doğuracaq layihələr həyata keçirməlidir. Yəni, İcma Qərbi Azərbaycanda tarix boyu, əsrlər boyu azərbaycanlıların var olduğunu sübuta yetirən layihələr həyata keçirməlidir və bunu beynəlxalq təşkilatlara tanıtmalıdır.

"Azərbaycan xalqı öz dədə-baba torpaqlarına geri qayıtmalıdır. Azərbaycana qarşı tarixi ədalətsizliyə son qoymalıyıq. Azərbaycan xalqı öz yenilməzliyini göstərib. Biz inanırıq ki, yaxın illərdə Qərbi Azərbaycanda da xalqımızın itirilmiş hüquqlarının bərpasına nail olacağıq", - deyə deputat fikirlərini yekunlaşdırıb.

511:1.QXD 28.12.2022 3:09 Page 6

Azərbaycanlıların deportasiyası və 1988-ci il faciəsi

(Əvvli ötən sayımızda)

Xaricdən gələn erməniləri yerləşdirmək üçün Yerevanda, Çarentsavan, Qaqarin kimi yeni şəhər və qəsəbələr salınmışdır. Ərəbgir adlanan sahədə də yeni şəhər inşa edildi və 70-ci illərdə Yerevanın tərkibinə daxil olundu. Tikililər mebel və qab-qacaqla birlikdə onlara pulsuz verilirdi. Xüsusi ev tikmək arzusunda olanlara kreditlər ayrılır, az müddətdən sonra isə borcları silindi.

Azərbaycanlılar köçürülmüş Təpəbaşı, Dəmirbulaq, Şəhər kimi qədim məhəllələrin sahələrində yeni çoxmərtəbəli binalar ucaldıldı. Məlumat üçün qeyd edək ki, 1831-ci ildə Şəhər məhəlləsində 3199 nəfər, Təpəbaşıda 2537 nəfər, Dəmirbulaqda isə 1595 nəfər azərbaycanlı yaşamışdır.

Stalinin vəfatı "könüllü" köçürməni müvəqqəti də olsa dayandırdı. Zavallı köçkünlərin bir hissəsi ata-baba yurdları olan Ermənistana doğru üz tutdu. Lakin yerli hakimiyyət organları onlann qoyub getdikləri evlərdə və kəndlərdə yerləşməyə icazə vemədi. Emənilər müftə yiyələndikləri ev-eşikdən əl çəkmək istəmirdilər. Geri gayıdanların bir hissəsi, məsələn, Noyemberyan rayonundakı Ləmbəli və Körpülü kəndlərinin əhalisi yeraltı daxmalar düzəldib orada yaşamağa məcbur oldular.

Zəngibasar rayonundan olan köçkünlərin bir hissəsi geri qayıdıb ləğv olunmuş Həbilkənd və Sarcalar kəndlərinin ərazisində toplaşdılar. Çətın təbii iqlim şəraiti olan bu kəndlərdə ermənilər inəskunlaşmamışdır. Respublika hökuməti boş qalan torpaqlardan səmərəli istifadə etmək üçün M. Kalinin adına tərəvəzçilik sovxozu yaratdı. Taleyin hökmünə bir bax! Azərbaycanlıların qovulub köçürülməsinin təşkilatçılarından biri olan Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin(KP MK) birinci katibi Q.A.Harutyunyan Mərkəzi Komitənin 1953-cü il sentyabr plenumunda vəzifədən azad edilib bu sovxoza direktor təyin olundu. Əhalisi bütünlüklə Azərbaycana köçüb geri qayıdanlardan ibarət olan bu sovxoza rəhbərlik etdiyi müddətdə o, azərbaycanlıların fədakar əməyinə heyran qaldığını dəfələrlə qeyd etmiş, onların köçürülməsinin cinayət olduğunu sonradan başa düşdüyünü etiraf etmişdir.

Bunlar tarixdir. Tarix isə reallığın inikasıdır. Bu reallığı öyrənib nəticə çıxarmaq hər nəslin borcu və vəzifəsidir. Lakin nə qədər qəribə görünsə də, hələ indiyə qədər 1948-1952-ci illərdə Ermənistandan Azərbaycana köçürülənlərin kəndlər üzrə sayı və yerləşdirildikləri yerlərin adları haqqında heç bir rəsmi məlumat dərc olunmayıb.

1931-ci – 1959-cu illər arasındakı 28 il ərzində azərbaycanlı əhalinin artımı demək olar ki görünmür. Bunun səbəblərindən biri müharibə idisə, digər əsas səbəbi kütləvi deportasiya, antiazərbaycan siyasətinin genişlənməsi olmuşdu. Əgər həmin 28 il ərzində azərbaycanlı əhalinin mütləq illik artımı lap az – 2,5-2,7 faiz olsaydı belə 1959-cu ildə sayı 235-240 min nəfərdən çox olardı. Beləliklə, 1918-1920-ci illərdə Ermənistanda yaşayan 260-280 nəfər azərbaycanlı məhv edilmiş, ya qovulmuşdusa, 1948-952-ci illərdə 130 min nəfərdən çox soydaşımız qədim yurd-yuvasından məcburi köçürülmüşdür. . Bu rəqəmin reallığı 1959-cu ildəki əhalinin sayı arasındakı fərqlə, hər il azərbaycanlıların illik artımının 3,0 faizindən çox olması ilə təsdiqlənir.

N.S.Xruşşovun hakimiyyəti dövründə Ermənistanda yaşayan azərbaycanlılara qarşı münasibətdə müəyyən sabitlik yarandı. Bu dövrdə respublikanın stalinçi rahbərlərinə qarşı kəskin və ədalətli tədbirlər

yerlərdə ekspansionist cəhdlərə müvəqqəti olaraq son qoydu. Moskvada baş verən hadisələri diqqətlə izləyib, bu ab-havaya uyğun olaraq siyasətlərində müəyyən taktiki düzəlişlər edirdilər. 1965-ci ildən sonra müəyyən müddət pərdəarxası oyunlar aparıldı, 1982-ci ildən ermənilər yenidən açiq demarşlara başladılar.

1983-cü il aprelin 24-da Masis (Zəngibasar) rayon mərkəzində azərbaycanlıların toyuna erməni ekstremistləri hücum edib məclisi dağıtmış, xeyli adama bədən xəsarəti yetirmişdilər. Həmin gün qəsəbədəki azərbaycan qəbiristanlığı darmadağın edilmişdi. Bu vandalizmə qarşı etiraz edərək azərbaycanlılar Ermənistan-Türkiyə sərhəddinə toplanmış, mitinqlər keçirmiş, Türkiyəyə keçmələrini tələb etmişdilər. Yalnız bundan sonra rayonun rəhbərliyi bir gecədə qəbiristanlığı bərpa edib əvvəlki vəziyyətinə qaytarmışdır. Moskvadan gələn komissiya isə hadisəni məişət ixtilafi kimi qələmə verib geri qayıtmışdı. Heç bir ciddi tədbir görülmədiyini hiss ədən millətçi qüvvələr öz çirkin əməllərini genişləndirirdilər. Bu hadisələr gələcək qırğınlar barədə azərbaycanlılara mesaj idi. İmkanı olanlar yavaş-yavaş ata-baba yurdlarını tərk etməyə başladılar.

Akademik Ağanbekyanın 1987-ci ildə Parisdə "Yumanite" qəzetinə Dağlıq Qarabağın Ermənistana birləşdirildiyi və M.Qorbaçovun buna razılıq verdiyi barədə müsahibəsi ilə yeni münaqişəyə start verildi. İttifaq hökumətinin gizli dəstəyindən istifadə edən ermənilər, Dağlıq Qarabağın, Naxçıvanın Ermənistana birləşdirilməsini, azərbaycanlıların respublikadan çıxarılmasını tələb etməyə başlamışdılar. 1988-ci ilin ortalarında Yerevandakı Teatr meydanında, Leninakanda, Qafanda mitinqlərə ara verilmirdi. SSRI-nin bayrağı tapdalanır, ermənilərin hərakatını tənqid etdiynə görə "Pravda" qəzetinin çap olunmasına maneəçilik törədirdilər.

Tarix göstərdi ki, M.Qorbaçov səhlənkarlığının məkli səbəbləri olmuşdur. Artıq o, ermənilər tərəfindən azərbaycanlılara garşı törədilən cinayətin ruhlandırıcı və icraçısı rolunu da öz üzərinə götürmüşdür. Məhz ona görə Sovet hakimiyyətinin hərəkətlərindən narazı olan Bakı əhalisinin dinc nümayişini "şər imperiyasının" əsgərləri qan dənizində boğdular. Məhz M.S.Qorbaçovun göstərişilə Stavropol diyarında yaşayan hərbi mükəllafiyyətçi ermənilər Azərbaycana göndərilmişdi. Bakıdakı 20 Yanvar gırğınını da rus generallarının göstərişi ilə onlar törətmişlər. Təsadüfi deyil ki, məhz 20 Yanvar faciəsindən sonra Yazov marşal ulduzuna layiq görülmüşdür.

M.S.Qorbaçov xarici ölkələrlə "soyuq müharibəyə" son qoysa da SSRİ-nin daxilində "qızğın müharibə"lər ocaqları yaratdı, millətləri biri birinə qırdırdı.

1988-ci ilin noyabr-dekabr aylarında Ermənistanda yaşayan azərbaycanlı əhali doğma Oğuz elindən tamamilə qovulmuş və didərgin salınmışdır. Onların sayı haqqında müxtəlif rəqəmlər gətirilir. Lakin apardığımız hesablamalar göstərir ki, 1988-ci ildə Ermənistanda yaşayan azərbaycanlıların sayı 250 min nəfərdən çox ola bilərdi. Həmin dövrdə Ermənistan əhalisinin mütləq artımı 2 faizdən çox, azərbaycanlı və kürdlərin mütləq artımı isə ildə orta hesabla 3,0-3,5 faiz arasında olmuşdu.Əgər illik orta artım 2,8-2,9 faiz üzrə həsablansa belə 18 il ərzində mütləq artım 100 min nəfər olar, 1989-cu il ərəfəsində azərbaycanlıların sayı 250 min nəfəri keçərdi. Həm də həsaba almaq lazımdır ki, Ermənistan vətəndaşı olan, ölkənin ali və orta ixtisas məktəblərində oxuyanların, Sovet ordusunda qulluq edanlərin, ölkənin müxtəlif bölgələrində müvəqqəti işləyənlərin əksəriyyəti qaçqınlar, qovulmuşlar siyahısına daxil edilməmişdi.

1988-ci ilin may ayında Ararat (Vedi) rayonundakı Şirazlı kəndində yaşayan azərbaycanlıların evlərinə hücum edilmiş, əhali kənddən govulmuş, Ermənistan-Türkiyə sərhəddinə yaxın Şiddi kəndindəki zastavaya toplaşmışdı.

İyun ayında Masis rayonundakı Sarvanlar, Nizami, Sayat Nova kəndlərində və Masis qəsəbəsində azərbaycanlılar yaşadıqları evlər basqına məruz qalmışdı. Bu kəndlərin 10 min nəfərdən çox Əhalisi Rəncbər kəndindəki sərhəd zastavasına toplaşmışdı. Bir küçədə 45 ev dağıdılıb yandırılmışdı. Amasiya, Quqark, Spitak, Qafan, Gorus, Sisyan, Meğri, Yeğeqnadzor, Əzizbəyov, Vardenis rayonlarında bu cür dağıntılar, əhalinin döyülməsi halları baş verirdi. Masis Rayon Partiya Komitəsinin katibi Gülnarə Hüseynova iş yerinə buraxılmamış,. Amasiya Rayon Partiya Komitəsinin birinci katibi İldırım Bağırov rayondan qovulmuşdu.

Sərhəd zastavalarından verilən məlumatları, əhalinin saysız teleqramlarını Moskva qulaqardına vururdu, 250 min nəfərə yaxın azərbaycanlının taleyinə biganəlik göstərilirdi. 0 zaman bunun qəsdən edildiyini heç kəs ağlına belə gətirmir, hökumətin zəifliyi kimi qələmə verməyə çalışırdılar. Ancag sonrakı hadisələr göstərdi ki, bunlar Qorbaçov hökumətinin, Sov.İKP MK Siyasi Bürosu siyasətinin ana xətti imiş.

1988-ci ilin noyabr, dəkabr aylarında Ermənistan rayon rəhbərləri azərbaycanlılar yaşayan kəndlərə gedib əhaliyə qırğından gurtarmaq üçün Azərbaycana köçməyi məsləhət görürdülər. Bunun üçün avtobuslar da təşkil olunmuşdu. Bundan sonra təşvişə düşən əhali erməni sürücülərinin idarə etdikləri avtomaşınlar dolurdu, Onları xilasetmə adınan kənddən çıxarıb birbaşa başkəsən "saqqallılar"ın yanına aparıb qırdırırdılar. Qaçıb xilas olunanlar qarlı-boranlı dağ cığırları ilə Azərbaycanaüz tuturdular. Bu cür vəhşiliklər ən çox Vardenis, Quqark, Spitak, Masis, Əzizbəyov, Amasiya rayonlarında baş verirdi. Nəticədə 229 nəfər həlak oldu. Onlardan Quqark rayonunda 12 nəfər diri-diri yandırılmış, əksəriyyəti işgəncə ilə qətlə yətirilmişdi.

Beləliklə, 1989-cu ildə əhalinin siyahıyaalınması ərəfəsində Ermənistanda (Meğri rayonundakı Nüvədi kəndinin əhalisindən başqa) bir nəfər də olsa azərbaycanlı qalmamışdı. Nüvədililər üç ilə yaxın erməni təcavüzünə sinə gərdi, 1991-ci il avqustun 8-də isə doğma yurdlarını məcburi tərk etdilər.

Azərbaycanlıların kütləvi surətdə qovulmasının təşkilatçısı o zaman respublika Kommunist Partiyasr Mərkəzi Komitəsinin birinci katibi Sergey Harutyunyan olmuşdu. 0, govulmanın planını müəyyənləşdirdikdən, lazımi tapşırıqlar verdikdən sonra Moskvaya "ezamiyyətə" getmişdi ki, sonra guya heç nədən xəbəri olmadığını deyə bilsin. O həmin S.Harutyunyan idi ki, 1965-ci ildə tələbələrin antiazərbaycan çıxışlarını təşkil etmişdi.. Qriqori Harutyunyanın 1947-1952-ci illərdə başlayıb sona çatdıra bilmədiyi "köçürməni" 1988-ci ildə eyni familiyalı Sergey Harutyunyan qovulma ilə əvəz edib sona yetirdi.

Əsası daşnak partiyası tərəfindən qoyulmuş etnik təmizləmə siyasətini Ermənistan Kommunist iqtidarı başa çatdırdr. Bunu dolayı yolla da olsa Ermənistan KP Mərkəzi Komitəsinin 1989-cu il yanvar ayında qəbul etdiyi qərar da təsdiqləyir.

Həmin qərarda göstərilir ki, sabitliyi pozduqlarına, millətlərarası ədavətin qarşısını almadıqlarına, fəaliyyətsizliyə və digər ganun pozuntularına yol verdiklərinə görə 1988-ci il dekabr ayında 13 nəfər rəhbər işçi Sov.IKP sıralarından xaric edilmiş, partiya, sovet və təsərrüfat orqanlarının 24 nəfər rəhbər işçisi, rayon və şəhərlərin hüquq- mühafizə orqanlarının 12 nəfər işçisi vəzifədən azad edilmiş, 68 nəfərə partiya töhməti verilmişdi. Quqark Rayon Partiya Komitəsinin birinci katibi L.Bağdasaryan, Quqark rayon Soveti İcraiyyə Komitəsinin sədri S.Kazaryan vəzifələrindən azad edilmiş və partiya cəzası almışlar.

Qərarda qeyd edilmişdir ki, partiya, sovet və təsərrüfat organları çətın şəraitdə qətiyyətsizlik, passivlik göstərmiş, prinsipial mövqedə durmamışlar. Stepanavan, İcevan, Yeğeqnadzor, Quqark, Krasnoselsk, Ararat, Masis, Amasiya, Noyemberyan rayonlarında vətandaşların konstitusiya hüquqlarinin kobud surətdə pozulması, şantaj və hədə ilə müşaylət olunan intizamsızlıq halları baş vermişdi. Rayonda vəziyyəti sabitləşdirmək və millətlərarası toqquşmaların qarşısını almaq üçün qəti tədbirlər görmədiklərinə, insan tələfatı və azərbaycanlı əhalinin kütləvi surətdə köçməsini təşkil etdiklərinə görə Stepanavan Rayon Partiya Komitəsinin birinci katibi Y.Cşmarityana partiya işinə yazılmaq şərtilə şiddətli töhmət verilmiş, Stepanavan Rayon Soveti İcraiyyə Komitəsinin sədri R.Mirzoyanın həmin vəzifədə galması qeyri-mümkün sayılmış, şəxsi işinə yazıimaqla ona şiddətli töhmət verilmişdi. Rayonda millətlərarası münasibətlərə siyasi rəhbərliyi təmin etmədikləri üzündən azərbaycanlı millətindən olan əhalinin intensiv miqrasiyasına yol verdiklərinə görə İcevan Rayon Partiya Komitəsinin birinci katibi C.Ananyana şəxsi işinə yazılmaqla töhmət verilmiş, İcevan Rayon Soveti İcraiyyə Komitəsinin sədri L.Ordmyana şəxsi işinə yazılmaqla şiddətli töhmət verilmişdir. Xalq təhsili naziri, Sov.İKP üzvü S.Haxumyana şəxsi işinə yazılmaqla şiddətli töhmət verilmişdi. Ermənistan SSR Daxili İşlər naziri U.Harutyunyana, Daxili İşlər nazirinin müavinləri Q.Qriqoryana və Q.Qukasyana partiya cəzası verilmişdi. (Bax: "Pravda" qəzeti, 17 yanvar 1989-cu il).Göründüyü kimi, sənəddə azərbaycanlılara qarşı təcavüz faktları rəsmi təsdiqlənir.

Bununla yanaşı qeyd edirik ki, qərarda dəfələrlə təkrar olunan "millətlərarası ədavət", "millətlərarası toqquşma" məfhumları həqiqi vəziyyəti ört-basdır etmək məqsədi ilə işlənmişdir. Çimki baş vərmiş hadisələr rəhbər partiya, sovet organları tərəfindan qızışdırılan və təşkii olunan aksiya idi. Millətlərarası münaqişə dedikdə münaqişəyə cəlb olunan tərflərin bir-birinə qarşılıglı surətdə bildirdikləri iddia nəticəsində baş verən aksiya nəzərdə tutulur. Ermənistanda yaşayan azərbaycanlıların ermənilərə qarşı heç bir iddiası olmamışdır.

Əgər Ermənistanda baş vermiş hadisə millətlərarası münaqişə olsaydı, hər iki tərəfdən ölənlər, zərərçəkənlər, ev-eşiyindən didərgin düşənlər olardı. Lakin Ermənistanda münaqişələrdən zərər çəkmiş bir nəfər də erməni yox idi. Azərbaycanlılardan isə 229 nəfər qətlə yetirilmiş, sağ qalanlar deportasiya olunmuşdur. Bunu dolayı yolla da olsa qərarda göstərilən faktlar da təsdiqləyir.

Bu əsərdə azərbaycanlılann məruz galdıqları təcavüz və vəhşiliyin şərti mərhələlərə bölünmüş yığcam şərhi verilmişdir. Birinci dövrdə azərbaycanlılar gəlmə ermənilər tərəfindən sıxışdırılmış, ikinci dövrdə əhali qılıncdan keçirilmiş, üçüncü dövrdə isə didərgin salınmışdır. İrandan və Türkiyədən köçürülmüş ermənilər İrəvan xanlığı ərazisində yerləşdirilməsəydi 1905-1906, 1918-1920, 1948-1952-ci illərin faciələri də olmazdı. Ümidvarıq ki, hər bir oxucu rəqəm və faktlar əsasında müstəqil nəticə çıxaracaqdır.

Oxucuda belə bir fikir yaranınasın ki, Ermənistanda yaşayan azərbaycanlılar düşmənə qarşı vuruşmayıb, asanlıqla təslim olub, qaçıblar. Yox, qəti belə deyil. Zəngibasar üsyanı, Vedibasar, Böyük Qarakilsə, Basarkeçər, Şərur-Dərələyəz, Zəngəzur bölgələrində azərbaycanlıların müqavimət hərəkatına dair yüzlərcə ibrətamiz faktlar, tarixi dəlillər vardır.

Həbib Rəhimoğlu
"Silinməz adlar, sağalmaz yaralar" kitabından

511:1.QXD 28.12.2022 3:09 Page 7

ŞƏRƏF XAN BİDLİSİNİN "ŞƏRƏFNAMƏ" ƏSƏRİ KÜRD XALQININ TARİXİ MƏNBƏYİ KİMİ

(Əvvəli ötən sayımızda)

Məlik Əşrəf Bidlis hökmdarı olmazdan əvvəl Şamda yaşamış və Əyyubilərin qoşun başçısı olmuşdur. O, heç bir şaha tabe olmadan bir müddət sərbəst olaraq hökmdarlıq etmiş və sonra ölmüşdür. Onun əmirlik vəzifəsini qardaşı Məlik Məcdəddin öhdəsinə götürmüşdür. Bidlisi qeyd edir ki, «Ondan (Məlik Məcdəddindən) sonra övladları ardıcıl olaraq hökmdarlıq etmiş və əmir Teymur Qorqaniyədək onlara heç kim toxunmamışdır (76, 372). Həmin dövrdə Bidlis əmirliyində mühüm və tarixdə qeyd edilməli bir hadisə baş verməmişdir.

Məlik Məcdəddindən sonra İzzəddin, Əmir Əbubəkr, Əmir Şeyx Şərəf və nəhayət, Teymurləngin müasiri olub və onunla görüşən Əmir Ziyaəddinin Bidlis hökmdarı olduqları «Şərəfnamə» də ardıcıllıqla verilmişdir. Lakin dövrün bir sıra mənbələrində Teymurləng zamanında Bidlis hökmdarı Əmir Ziyaəddin deyil, Hacı Şərəfin hökmdar olduğu və Teymurləng ilə görüşdüyü qeyd edilir.

Şərəfəddin Əli Yəzdi 1393-cü ildə Teymurləngin Kürdüstan ölkəsinə gəlməsindən bəhs edərək yazır: «Öz doğru və düzgünlüyü ilə bütün Kürdüstanda məşhur olan Bidlis hökmdarı Hacı Şərəf Teymurun görüşünə gələrək ona yaxşı atlar hədiyyə verdi. Teymur da onu öz növbəsində mükafatlandıraraq Bidlis əmirliyini başqa hissələri ilə birlikdə, yenə də ona verdi (77, 687).

Eyni hadisəni o dövrün bir çox tarixçiləri (Nizaməddin Şami və Budaq Qəzvini) öz əsərlərində olduğu kimi qeyd edirlər (126, 152; 54, 316). Məsələn, F.Metsopski də «Əmir Şərəfin Teymurun yanına gəldiyini və mehribanlıqla qarşılandığını, Teymurun ona (Hacı şərəfə) sülh məktubu verdiyini və bununla da bütün ölkənin asudə olduğunu yazır (41, 14).

Bidlisi göstərir ki: «Hacı Şərəf Bidlis, Əxlat, Muş və ixtiyarında olan başqa qalaların açarlarını götürüb gözəl hədiyyələrlə Teymurun görüşünə getdi. Teymur onu yaxşı qarşılayaraq mükafatlandırdı və bir neçə rayonu da onun əmirliyinə qataraq bu haqda bir fərman verdi (76, 372).

Həmin fərmanın 1533-cü ilə qədər qorunub saxlanması «Şərəfnamə» də qeyd edilir. Bidlisi yazır: «Bidlis əmirliyində hərc-mərclik baş verdi, 1533-cü ildə Şərəf xan öldürüldü, oğlu Şəmsəddin xan Ruzəkilərlə birlikdə İran ölkəsinə gedərkən başqa şahların verdikləri fərmanlarla bərabər, Teymurləngin verdiyi fərman da itib batmışdı (76, 373). Beləliklə, Əmir Ziyaəddinin Teymurlənglə görüşməsi haqqında nə «Şərəfnamə» də, nə də başqa mənbələrdə heç bir məlumata təsadüf olunmur, hətta Kürdüstan tarixindən bəhs edən sonrakı tədqiqatçılar da əsasən Bidlis hökmdarı Hacı Şərəfin Teymurlənglə görüşməsini qeyd edirlər (97, 335).

Buna görə də Əmir Ziyaəddinin Bidlis hökmdarı olması mütləq, lakin onun 1393-cü ildə Teymurləng ilə görüşməsi şübhəlidir. Çünki, əvvəldə qeyd edildiyi kimi, həmin tarixdə Bidlis hökmdarı Zeyaəddinin oğlu Hacı Şərəf olmuşdur. Onun hökmdarlığı haqqında «Şərəfnamə» və digər mənbələrdəki faktları qeyd etmək olar.

Hacı Şərəf zəmanəsinə görə ağıllı və siyasətçi bir hökmdar idi. O, Teymkrləngi hədiyyələrlə qarşılamaq və öz qalalarının açarını ona təqdim etməklə böyük bir insan qırğınının qarşısını ala bilmişdi. Marks yazır: «Teymurun siyasəti minlərlə qadına, körpəyə, kişiyə, gəncə işkəncə verməkdən, onları qılıncdan keçirməkdən, qırmaqdan və bununla da hər yerdə dəhşət törətməkdən ibarət idi» (2, 185).

Bu cəhəti nəzərə alaraq Hacı Şərəf qüvvətli düşmənə tabe olub bununla da öz müstəqilliyini qoruyub saxlamışdı

Hacı Şərəfdən sonra oğlu Məlik Şəmsəddin (təxminən 1399-1425-ci illərdə) Bidlis hökmdarı olmuşdur.

Bidlis əmirliyinin tarixində Məlik Şəmsəddinin dövrü o qədər də sakit keçməmişdir. Temurləng zamanında qaçaq olan Qara Yusif Qaraqoyunlu Teymurun ölümündən sonra 1405-ci ildə öz tərəfdarları ilə birlikdə əvvəl Diyarbəkirə və oradan da Bidlis əmiri Məlik Şəmsəddinə pənah gətirdi. F. Metsopekinin yazdığına görə Məlik Şəmsəddin onu duzçörəklə qarşılamış, silah, at, qatır və hər cür hərbi ləvazimatla təchiz etmişdir (41, 22-23).

Xondəmir qeyd edir ki, «Qara Yusif Diyarbəkirə gəldiyi zaman Əxlat və Bilbis[42] (Bidlis-Ş.M.) hakimi Məlik Şəmsəddin ilə onun arasında dostluq və qohumluq əlaqəsi yarandı. Məlik Şəmsəddin Qara Yusifin qızı ilə evləndi (64, 461).

Bidlisi yazır ki: «Qara Yusif öz qızını Məlik Şəmsəddinə ərə verdi. Məlik isə Pasin rayonu ilə Onik qalasını Qara Yusifin ixtiyarında qoydu» (76, 376; 97, 336).

Beləliklə, Qara Yusif bir qədər qüvvə topladıqdan sonra 1406-cı ildə Teymurləngin nəvəsi Əbubəkrin ixtiyarında olan Çuxur Səəd qalasına hücum etdi. Baş verən müharibədə Qara Yusif qalib gəldi və həmin qaladan başqa Mərənd, Naxçıvan, Şərur və Maku qalalarını da işğal etdi.

Fon Hammerin yazdığına görə Qaraqoyunlu sülaləsinin hakimiyyəti 1375-ci ildən 1467-ci ilədək davam etmişdir (99, 17).

Mənbələrdəki məlumata əsasən Qara Yusifin qüvvə və qüdrəti artdıqca Şəmsəddinin də hörmət və nüfuzu artır, əmirlik sahəsi böyüyürdü. Əbdürrəzzaq Səmərqəndi yazır ki: «Əmir Şəmsəddin və o mahalın digər əmirləri Qara Yusif ilə birlikdə hərəkət edirdilər (108, 172).

Bidlisi yazır: «Əmir Şəmsəddin ilə Qara Yusif arasındakı dostluq və ittifaq o dərəcəyə çatmışdı ki, Qara Yusif ona oğlum-deyə xitab edirdi» (76, 376; 97, 337).

Beləliklə, Teymur sülaləsinə qarşı yaradılan bu ittifaq getdikcə möhkəmlənirdi. Qara Yusif şah olan kimi Muş, Əxlat rayonlarının suyurqal[43] olaraq Bidlis əmirliyinə əlavə edilməsini bir fərmanla rəsmiləşdirdi.

Fərmanın tərcüməsi:

Kürdüstanın əmir və hökmdarları, ərbab və böyükləri, məlik və kətxudaları, xüsusilə Bidlis, Əxlat, Muş və Xnos rayonlarına tabe olan əhali və məşhur adamlar bilməlidirlər ki, böyük Əmir Şəmsəddin öz fədakarlıq və sədaqəti ilə bizim tam etimadımızı qazanmışdır. Odur ki, keçmişdə olduğu kimi, Bidlis, Əxlat, Muş və Xnos rayonları və qalaları, Bidlis xəzinəsinə xas olan mal və pul vergiləri suyurqal olaraq Əmir Şəmsəddinə verilir. Məzkur əmir heç kəsin müdaxiləsi və iştirakı olmadan tam müstəqilliklə sərbəst olaraq hökmdarlıq edəcəkdir. Bu fərmana görə heç kəs onun adamlarına təcavüz etməməlidir. Bu fərmanı pozanlar dərhal şiddətli cəzalara məruz qalacaqdır.

Əmirlərin, sərkərdələrin, Bidlis, Əxlat, Muş, Xnos və bütün qalaların əhali və əyanlarının vəzifəsi hörmətli Əmir Şəmsəddini özlərinin böyük əmiri hesab etmək, onun sözünü və məsləhətlərini qəbul edərək ona tabe olmaq və bütün göstərişlərini fədakarlıqla icra etmkdən ibarətdir. Hicri 820-ci il 10 rəbiüləvvəl 18 aprel 1417-ci il (76, 376-378).

1420-ci ildə Qara Yusif öldü. Onun ölümündən 40 gün sonra Əmir Teymurun oğlu Şahrux Mirzə Kürdüstana gəldi. Mənbələrdə deyilir ki: «Şahrux Mirzə Əxlat nahiyəsindəki Mərku adlanan yerdə düşərgə saldığı zaman digər kürd əmirləri ilə birlikdə Bidlis hökmdarı Məlik Şəmsəddin də onun görüşünə getmiş və ona tabe olduğunu bildirmişdir (76, 378-379). Bundan sonra Şahrux onun əmirliyini təsdiq etmişdir.

Beləliklə də, Məlik Şəmsəddin bir zaman Qara Yusif ilə və sonra Şahrux Mirzə ilə yaxşı münasibətdə olmaqla öz istiqlaliyyətini qoruyub saxlaya bilmişdir. O, öz dövrünə görə ağıllı və siyasətçi bir hökmdar idi. Kürdlər arasında ona «Şəmsəddin əl-Kəbir» adı verilmişdi.

Bidlisinin yazdığına görə Məlik Şəmsəddin öz adına xütbə oxutdurmuş və sikkə zərb etdirmişdir (76, 379). Eduard Braun qeyd edir ki, Qaraqoyunlu İskəndər Şahruxa qarşı müharibədə qalib gəldi… və 1425-ci ildə Əxlat hökmdarı Şəmsəddini məğlub etdi (51, 66).

Bu faktlardan aydın olur ki, Məlik Şəmsəddinin dövrü Bidlis əmirliyi üçün ən yüksək dövr olmuşdur. Buna görə də onun ölüm hadisəsi istər mənbələrdə və istərsə də tədqiqat əsərlərində tarixçilərin diqqət mərkəzində durmuşdur.

F.Metsopski onun öldürülməsini geniş izahatla qeyd edərək yazır: «Qara Yusifin oğlu İskəndər 1425-ci ildə Bakeşə (Bidlisə–M.Ş.) və Əxlata gələrək Əxlat qalasını öz yeznəsi Əmir Şəmsəddindən tələb etdi. Bu tələb rədd olduğu üçün İskəndər onun öldürülməsini əmr etdi» (41, 27).

«Şərəfnamə» də Əmir Şəmsəddinin ölümü belə təsvir olunur. «Əmir Şəmsəddinin arvadı türkmən qızı olduğu üçün at minməyi və çovqan oynatmağı çox sevirdi. Əmir bu işin kürdlər arasında eyib olduğunu dəfələrlə ona tövsiyyə etmiş, lakin qadını buna əhəmiyyət verməməşdir Odur ki, qəzəblənmiş əmir vurub qadınının bir dişini sındırmışdı. Qadın sınmış dişini qardışı İskəndərə göndərmiş və dəli İskəndər gəlib Əmir Şəmsəddini öldürmüşdür» (76, 380).

Müəllif bu hadisəni bir rəvayət kimi qeyd edərək göstərir ki, Əmir Kəbirin (Əmir Şəmsəddinin) ölümünə əsas səbəb onun Şahrux sarayına yaxınlaşması olmuşdur (76, 381; 24, 149).

Dövrünün ictimai ziddiyyətlərini nəzərə aldıqda müəllifin son fikri ilə razılaşmaq olar, çünki öz əmirliyinin təhlükəsizliyini qorumaq məqsədilə Qaraqoyunlu hökuməti ilə

ittifaq bağlayan Əmir Şəmsəddin, o hökumətin (Qaraqoyunlu hökumətinin) zəiflədiyi bir zamanda, onu başqa bir qüvvətli hökumətə tabe olmadan öz müstəqilliyini qoruyub saxlaya bilməzdi. Beləliklə, Əmir Şəmsəddinin Şahrux sarayına yaxınlaşması dövrün xarakter və tələbinə tamamilə uyğun idi. Lakin onun Qaraqoyunlu sülaləsinə düşmən olan Şahruxa yaxınlaşması İskəndəri qəzəbləndirdi və nəticə etibarilə Əmir Şəmsəddinin ölümünə səbəb oldu.

Bidlis əmirliyinin istər Hacı Şərəf və istərsə də onun xələfi Əmir Şəmsəddin dövrünü tədqiq edən bəzi tədqiqatçılar hadisələri mənbələr əsasında deyil, onu təhrif olunmuş formada izah edirlər:

«Şərəfnamə» də deyilir ki: «Əmir Teymurun Bidlis Əmiri Hacı Şərəfə verdiyi fərman 1533-cü ilədək qalmışdı. Lakin baş verən hərc-mərclik nəticəsində Şərəf xan öldürüldü və oğlu Əmir Şəmsəddin xan[43] İran ölkəsinə getdi. Bu zaman başqa şahların fərmanları ilə birlikdə, Teymurləngin verdiyi fərman da itmişdir (76, 373).

Alman tədqiqatçısı Fric «Şərəfnamə» yə istinad etsə də hadisəni düzgün tədqiq etmədən belə yazır: «Hacı Şərəfin ölümündən sonra oğlu Əmir Şəmsəddin Bidlis əmiri oldu» (97, 336). «Şərəfnamə» də onun İrana getməsi yazılırsa da, qayıtması haqqında bir qeyd yoxdur (97, 336).

Fric hətta hadisələrin tarixinə də düzgün fikir verməmişdir. O, XV əsrin əvvəllərindəki Bidlis əmiri Hacı Şərəf ilə oğlu Əmir Şəmsəddini XVI əsrin ortalarındakı Bidlis əmiri Şərəf xan və onun oğlu Şəmsəddin xanla qarışdırmışdır. Görünür ki, Fricin bu səhvi adların oxşarlığından irəli gəlmişdir. Çünki Kürdlərdə və xüsusilə haqqında bəhs etdiyimiz Ruzəkilər sülaləsində nəvəni babasının adı ilə adlandırmaq ənənəvi bir şəkil almışdı. Fric bu məsələyə diqqət etmədiyi üçün «Şərəfnamə» dəki məlumata şübhəli yanaşmışdır.

Biz həmin hadisənin izahını Məhəmməd Əmin Zəkinin «Tarix əl-Kürd və Kürdüstan» adlı əsərində də Fricin əsərində olduğu kimi müşahidə edirik. Bunun da səbəbi məlumdur. Məhəmməd Əmin Zəki öz tədqiqat işində Kürd tarixinin yeganə mənbəyi olan «Şərəfnamə» dən deyil, Fricin «Şərəfnamə» nin izahatı tərzində yazdığı «Kürdlər» adlı əsərindən əsasən çox istifadə etmişdir. Beləliklə, biz də əldə olan mənbəyə istinad edərək, hər iki müəllifin yuxarıda izah etdiyimiz nöqteyi-nəzərlərini tamamilə rədd edirik.

Bidlis əmirliyinin tarixi ilə əlaqədar olaraq düzgün tədqiq edilməyən hadisələrdən biri də Teymurləngin ölümündün sonra (1405) Qaraqoyunlu Qara Yusifin Bidlis əmirliyinə gəlməsi və öz qızını əmir Şəmsəddinə ərə verməsindən ibarətdir. Bu haqda «İslam ensiklopediyası» nda «Kürdlər» adlı məqalənin müəllifi V.F.Minorski yazır:

«Qara Yusif Kürdüstana gəldi, Əmir Şəmsəddin qızını ona verməklə, öz hakimiyyətini möhkəmləndirdi» (132, 1206).

Rəşid Yasəmi də öz əsərində (69, 202-203) həmin fikri təkrar edir. Çünki Yasəmi əsərini yazarkən V.F.Minorskinin həmin məqaləsinə çox istinad etmişdir.

(Ardı gələn sayımızda)

511:1.QXD 28.12.2022 3:09 Page 8

Azərbaycanın əzəli torpaqlarını geri alan ilk Prezident!

Prezident İlham Əliyevin doğum günüdür. Dövlətimizin başçısı fəaliyyəti dövründə Azərbaycanda ordu quruculuğu, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası, beynəlxalq nüfuzunun daha da yüksəlməsi istiqamətində böyük və mühüm işlər görüb. Təsadüfü deyil ki, müstəqil Azərbaycanda ordu quruculuğu prosesi Prezident İlham Əliyevin hakimiyyəti dövründə keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam etdirən və zənginləşdirən dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Silahlı Qüvvələrimizin ən modern silah və texnika ilə təchizatı istiqamətdə davamlı addımlar atılıb. Bu ali diqqət və qayğı nəticəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrilib.

Ümumiyyətlə, Azərbaycan Silahlı Qüvvələrinin keçdiyi döyüş yolunun zirvəsi Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbə - Qarabağ Zəfəridir. Dönə-dönə vurğulandığı kimi, xalqımızın çoxəsrlik tarixində buna bənzər Qələbə olmayıb.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi şanlı Azərbaycan Ordusu Vətən müharibəsində 30 ilə yaxın erməni quldurlarının tapdağı altında qalan hər bir şəhər və kəndin işğaldan azad edilməsində qəhrəmanlıq səhifəsi yazdı. İndi işğalçılara qarşı aparılan "Dəmir yumruq" əməliyyatı dünyanın qabaqcıl ölkələrinin hərb məktəblərində öyrənilir. Həmin sırada Şuşa uğrunda döyüşlər xüsusi yer tutur.

Xalqımız 30 il idi ki, Qarabağın azad olunması arzusu ilə yaşayırdı. Ona görə əsgər və zabitlərimiz o qədər ürəklə və həvəslə ölümü belə göz ardına alaraq torpaqlarımızın işğaldan azad olunmasına töhfə verməyə can atırdı. Belə çətin dağlıq ərazidə əsgərlərin, zabitlərin çətinliklərə baxmayaraq düşmənə qalib gəlməsi qürurvericidir. Şükürlər olsun ki, biz qarşımıza qoyulan məqsədə çatdıq. Bu Zəfər yalnız Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin Qələbəsi deyildi. Bu, bütün Azərbaycan xalqının Qələbəsi idi. Qırx dörd gün davam edən müharibədə xalqımız Ordumuzu, dövlətimizin başçısının uğurlu siyasətini fəal şəkildə dəstəklədi. Müzəffər Ali Baş Komandanımızın "Dəmir yumruğ"u, onun iradəsi, apardığı siyasət bizim məqsədimizə nail olmağımıza böyük təkan verdi. İkinci Qarabağ müharibəsində üç minə yaxın şəhid Vətən uğrunda canını qurban verdi. Təbii ki, şəhidsiz torpaq almaq qeyri-mümkündür. Ancaq biz, bir evdən iki şəhid verib, "Ana Vətən sağ olsun" deyən xalqın nümayəndələriyik. Təbii ki, elə bir xalqın oğlu, Ordusu da bu Zəfəri əldə etməli idi.

Azərbaycan Silahlı Qüvvələrinin şərəfli tarixi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Müasir Azərbaycan Ordusunun qurulması, inkişafı və möhkəmlənməsi Heydər Əliyevin yorulmaz fəaliyyətinin, dövlətçilik təfəkküründən, siyasi uzaqgörənliyinin və təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsidir. Tarixə nəzər salsaq, görərik ki, Ulu Öndər hələ sovet dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə böyük uzaqgörənliklə gələcəyi düşünür, milli zabit kadrların yetişdirilməsinə çalışırdı. 1971-ci il iyunun 20-də Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin yaradılmasına nail olundu. Heydər Əliyev azərbaycanlı gəncləri, həmçinin SSRİ-nin qabaqcıl hərbi məktəblərinə təhsil almağa göndərirdi. Hazırda Azərbaycan Silahlı Qüvvələrin formalaşmasında Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetişdirdiyi milli zabit kadrlarımızın müstəsna rolu olub. Onlar Birinci Qarabağ müharibəsində, Aprel döyüşlərində, Vətən müharibəsində misilsiz igidliklər göstəriblər.

Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra ordumuzda və xalqımızda Qələbəyə qəti inam yarandı. Dahi şəxsiyyətin çağırışı ilə genişmiqyaslı səfərbərlik keçirildi, hərbi hissələr tam komplektləşdirildi. Ordumuz Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə uğurlu hücum əməliyyatları keçirərək düşmənə sarsıdıcı zərbələr endirdi. Ordu quruculuğu işinə böyük önəm verən Ulu Öndər Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən, 26 iyun Silahlı Qüvvələr Günü elan olundu.

Prezident İlham Əliyevin rəhbərliyi ilə güclü dövlət quruculuğu strategiyasının uğurla reallaşdırılması, güclü iqtisadi potensialın və böyük maliyyə imkanlarının yaradılması müasir ordu quruculuğu və hərbi məsələlərin yüksək səviyyədə həllinə imkan yaratdı. Bu məqsədlə hər il dövlət büdcəsində müdafiə xərclərinə böyük vəsait ayrıldı, ölkənin müdafiə sənayesi yaradıldı, ordu ən müasir silahlarla təchiz edildi, ölkəmizin hərbi sahədə əməkdaşlıq əlaqələri genişləndirildi. Modernləşdirilən, ən müasir texnika ilə təmin olunan Azərbaycan Ordusunun gücü, qüdrəti bu gün beynəlxalq səviyyədə etiraf edilir. Silahlı Qüvvələrimiz indi dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşıb. Hazırda Azərbaycanın müdafiə sənayesi müəssisələrində mindən çox hərbi təyinatlı məhsul istehsal edilir.

Ordumuzun hərbi qüdrəti 2011-ci il iyunun 26-da Bakıda Silahlı Qüvvələrin Ali Baş Komandanı Prezident İlham Əliyevin iştirakı ilə Silahlı Qüvvələr Günü və müstəqilliyin bərpasının 20 illiyi münasibətilə keçirilən hərbi paradda əyani nümayiş etdirildi. Rəşadətli Ordumuz gücünü 2016-cı ilin Aprel döyüşlərində bir daha göstərdi. Uğurlu əks-hücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsi azad edildi. Azərbaycan Ordusu daha bir uğurunu 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazandı. Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycanın nəzarəti altına keçdi.

Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə 2018-ci il iyunun 26-da Bakının Azadlıq meydanında təntənəli hərbi parad təşkil edildi. Paradda iştirak edən Prezident, Ali Baş Komandan İlham Əliyevin qəti əminliklə dediyi sözlər – xalqımızın həsrətlə gözlədiyi qələbə arzuları çox keçmədən reallaşdı. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində rəşadətli Ordumuzun qazandığı şanlı Qələbə tariximizə qızıl hərflərlə yazıldı. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz düşmənə sarsıdıcı zərbə vuraraq, 44 gün ərzində 5 şəhər, 4 qəsəbə və 300-dək kəndi işğaldan azad etdi. Təsadüfi deyil ki, XXI əsrin müharibəsini aparan Azərbaycan Ordusunun döyüş əməliyyatları, xüsusən Şuşa əməliyyatı bu gün dünyanın qabaqcıl hərbi məktəblərində öyrənilir.

Vətən müharibəsindən sonrakı dövrdə Azərbaycan Ordusunun daha da gücləndirilməsi istiqamətində mühüm addımlar atılır, silah-sursat təchizatı, komando bölmələri yaradılır. Son bir neçə ildə ordu quruculuğunda görülən işlərin təhlilini aparsaq, görərik ki, ötən illər bizim üçün səmərəli, nailiyyətlərlə dolu və ordu quruculuğu prosesində başucalığı gətirən dövr olub. Ordu quruculuğunun bizim üçün ən başlıca və prioritet məsələ olduğunu vurğulayan Prezident, Müzəffər Ali Baş Komandanı İlham Əliyevin birbaşa rəhbərliyi və tapşırığına əsasən kompleks şəkildə aparılan islahatlar Silahlı Qüvvələrdə bütün istiqamətləri əhatə edə bilib. Bunun nəticəsidir ki, ordumuz aparıcı dövlətlərin orduları səviyyəsinədək yüksəlməyə nail ola bilib və güclü ordularla bir cərgədə dayanmağa layiq olduğunu sübut edib.

Ali Baş Komandanın atdığı uğurlu addımlar sayəsində Azərbaycanın iqtisadi qüdrətlənməsi hərbi büdcəmizin də sürətlə yüksəlməsinə səbəb oldu. Bu istiqamətdə artım tendensiyasının ölkəmizdə davamlı olması da qürurvericidir. Son bir neçə ildə ordumuzun silahlanmasına yüksək texnologiyaların tətbiqi ilə hazırlanmış ən müasir, dəqiq, geniş ərazidə məhvetmə qabiliyyətinə malik silah-sursat və döyüş texnikası qəbul edilib. Bu proses mərhələlərlə, planlı surətdə həyata keçirilməkdə davam edir.

Ali Baş Komandanın göstərişinə əsasən, bu il hərbi sahədə daha genişmiqyaslı struktur islahatları aparılıb, eləcə də hərbi təhsil sahəsində dəyişikliklər olub. Təlimlərlə bağlı ciddi addımlar atılıb, yeni silahlı birləşmələr yaradılıb. Ordumuz qardaş Türkiyə Silahlı Qüvvələrinin modelinə uyğunlaşdırılır. Uğurlu "Dəmir yumruq" əməliyyatından sonra Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin kiçik modeli kimi yeni keyfiyyət mərhələsinə yüksəlməsi, habelə qoşunların ən müasir silah və hərbi texnika, bütün təminat növləri ilə təchiz edilməsi barədə müvafiq göstərişlər verdi. Eyni zamanda, dövlətimizin başçısının Fərmanı ilə Azərbaycan Ordusunun təşkilati-ştat quruluşunda əsaslı dəyişikliklər aparıldı və Azərbaycan Ordusunun tərkibində Quru Qoşunları, əməliyyat (komando) birləşmələri və Milli Müdafiə Universiteti yaradıldı. Həmçinin Xüsusi Təyinatlı Qüvvələr və Hərbi Dəniz Qüvvələrinin ştatlarının optimallaşdırılması həyata keçirilərək qüvvə və vasitələrinin sayı artırıldı.

Heç kimə sirr deyil ki, son illər Azərbaycanda hərbi-sənaye kompleksinə aid onlarla müəssisə uğurla fəaliyyət göstərir və ordumuzu keyfiyyətli məhsullarla təmin edir. Azərbaycanın hərbi sənaye zavodlarında bütün növ patronlar, tapançalar, avtomatlar, pulemyotlar, qumbaraatanlar, minaatanlar, aviasiya bombaları, zirehli maşınlar, snayper tüfəngləri, pilotsuz uçuş aparatları da daxil olmaqla, mindən artıq çeşiddə müdafiə təyinatlı məhsullar istehsal edilir.

Ötən il iyunun 15-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın işğalından azad edilən, Qarabağın tacı olan Şuşa şəhərinə səfər etməsi və iki dost, qardaş dövlət arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması mühüm tarixi hadisədir. Bu tarixi sənəddə xüsusilə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri əksini tapıb. Sənəddə həm tarixi, həm siyasi, həm də hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş şəkildə birgə fəaliyyətin əks olunması hər iki dövlətin milli maraqları baxımından müstəsna əhəmiyyət kəsb edir. İkinci Qarabağ müharibəsindən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığı ilə Azərbaycan Ordusunda Türkiyə Silahlı Qüvvələrinə uyğun islahatlar həyata keçirilir. Çünki Türkiyə Silahlı Qüvvələri dünyanın ən aparıcı ordularından biridir. Türkiyə-Azərbaycan qardaşlığı əbədidir.

Hazırda Azərbaycan zəfərdən-zəfərə doğru irəliləməkdədir. Vətən müharibəsində qazanılmış Qələbədən dərhal sonra azad olunmuş ərazilərin bərpasına başlanıldı. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə azad Qarabağımızda mühüm infrastruktur obyektlərinin açılışı oldu, yeni layihələrə start verildi. XXI əsrin müharibəsini aparan Azərbaycan Şuşada, azad edilmiş digər ərazilərdə inanılmaz, möhtəşəm bərpa-quruculuq işləri görür. Xalqımız indi Vətən müharibəsində qazanılmış şanlı Qələbənin ikinci ildönümünü Qarabağda aparılan bu möhtəşəm bərpa-quruculuq işləri fonunda yüksək əhvali-ruhiyyə ilə qeyd edir.

Düşmənin yerlə-yeksan etdiyi həmin torpaqlarda iki ilə yaxındır ki, genişmiqyaslı quruculuq-bərpa işləri aparılır. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın azad olunan rayonlarımıza çoxsaylı səfərləri zamanı mühüm infrastruktur obyektləri istifadəyə verilir, yenilərinin təməli qoyulur. Cəmi iki il ərzində Füzulidə və Zəngilanda ən müasir beynəlxalq aeroportlar tikilərək istifadəyə verilib, Şuşaya Zəfər yolu çəkilib, bir çox tarixi abidələr bərpa olunub. Eləcə də azad olunmuş ərazilərdə yeni yollar salınır, körpülər və tunellər tikilir, yaşayış, məktəb, xəstəxana binalarının və digər infrastruktur obyektlərinin tikintisi gedir. Zəngilanda inşa olunmuş "Ağıllı kənd"ə ilk sakinlərin köçürülməsi ilə "Böyük Qayıdış" prosesi başlanıb.

Azərbaycan heç vaxt tarixdə bu qədər güclü və qüdrətli olmayıb. Qazanılan uğurlar sırasında Qarabağ Zəfəri xüsusi yer tutur. Prezidentimiz iqtisadiyyatı və ordumuzu gücləndirərək, diplomatik müstəvidə illər boyu yorulmadan fəal və təsirli iş apararaq, xalqımızı öz ətrafında yumruq kimi birləşdirərək Qələbəni addım-addım yaxınlaşdırdı. Ulu Öndərin vəsiyyətini yerinə yetirərək bizi doğma Qarabağımıza qovuşdurdu. Azərbaycanı qalib ölkəyə çevirdi, adını tariximizə qızıl hərflərlə yazdırdı. Prezident İlham Əliyev bu mənada da xoşbəxt dövlət başçısıdır ki, 61 yaşını ərazi bütövlüyü təmin olunmuş ölkənin, qalib xalqın Prezidenti kimi qeyd edir. Dövlətimizin başçısının on doqquz il əvvəl başlayan uğur yolu Azərbaycanı zirvədən-zirvəyə, qələbədən-qələbəyə aparmaqdadır.

azertag.az

511:1.QXD 28.12.2022 3:09 Page 9

KDP ile YNK arasında uzlaşma!

Kürdistan Demokrat Partisi (KDP) ve Kürdistan Yurtseverler Birliği (YNK) arasında yaşanan gerginlikten sonra gerçekleşen görüşmeler neticesinde sorunların çözüldüğü bildirildi.

YNK ve KDP arasında yaşanan gerginlik ardından yapılan görüşmeler sonucunda sorunların çözüldüğüne dikkat çekildi. Bu çerçevede yaşanan gerginlikten dolayı atanamayan bazı bakanlıklar ve Parlamentodaki değişiklikler yönünde uzlaşmaya vardı.

Söz konusu olan duruma yönelik İçişleri Bakanı Reber Ahmed yaptığı basın açıklamada, "Bazı değişiklikler daha erken gündeme gelebilir. Çünkü, ne YNK ne de KDP'nin bu konuda herhangi bir sorunu yoktur" ifadelerine yer verdi.

"Güven oylamasını bekliyoruz"

Reber Ahned her iki partinin hükümette halka daha iyi hizmet vermek için birlikte hareket etmeleri gerektiğini söyledi.

Öte yandan Irak Adalet Bakanlığı'na atanan Xalid Şivani'den boşalan Kürdistan Bölgesi ile Irak hükümet ilişkilerinden sorumlu bakanlık görevine YNK'den Ahmed Askeri atandı. Peşmerge Bakanı Şoreş İsmail'den boşalan koltuğa YNK'den Rêbaz Berkoti atanırken, YNK'li Hawkat Serkewt Hasan ise İçişleri Bakan yardımcılığına atandı.

Peşmerge Bakanı görevine atanan Erbil İl Meclisi'nde YNK Grup Sözcüsü Rêbaz Berkoti yaptığı açıklamada, "Peşmerge Bakanlığı'na hizmet etmemi teklif ettiler. Eski bir Peşmerge olarak önümüzdeki günlerde yeni göreve başlayacağımı umuyorum. Yeni yıl tatili ardından Parlamento'da yapılacak güven oylamasını bekliyoruz" dedi. ***PeyamaKurd***

Rusya'dan 'üçüncü dünya savaşı' açıklaması!

Rusya Güvenlik Konseyi Başkan Yardımcısı Dmitri Medvedev, Rusya'nın "üçüncü bir dünya savaşını ve nükleer felaketi önlemek için her şeyi yapacağını" dile getirdi.



Medvedev, "Eğer bunları (Rusya'ya uygun maksimum güvenlik garantileri) alamazsak, gerginlikler sonsuza kadar devam edecektir. Dünya, Üçüncü Dünya Savaşı ve nükleer felaketin eşiğinde sallanmaya devam edecektir. Bunları önlemek için her şeyi yapacağız" dedi.

NATO'yu, doğuya doğru genişletme girişimlerinin Rusya ile "savaş hazırlığı" olduğunu iddia eden Medvedev, "Bağımsız ve egemen devletlerin Anglo-Sakson dünyasıyla ilişkilerinde, mevcut konfigürasyonda güvenin, ortakların dürüstlüğüne dair umudun, sözlerine sadakatlerinin ve hatta güzelce ifade edilmiş kendi ilkelerinin bile söz konusu olamayacağı artık kesin olarak açıktır" diye konuştu. ***PeyamaKurd***

İsrail, 33 adet F-35 savaş uçağı için inceleme başlattı!

ABD ve Türkiye arasında krize neden olan F-35 savaş uçaklarına dair İsrail'den bir açıklama geldi.

Tel Aviv yönetimi, sık ve beklenmedik kritik arızalarıyla dikkat çeken F-35 savaş uçakları için inceleme başlatacağını bildirdi.

Açıklamada bir F-35'in ABD'de düşmesinin ardından uçaklarda hata olup olmadığı inceleneceği vurgulandı.

İsrail 33 tane F-35 için inceleme başlattı!

Konuya dair habere göre ABD'nin Teksas eyaletinde 15 Aralık'ta bir F-35'in iniş sırasında düşmesi sonrasında Washington uyardı, İsrail harekete geçti.

İsrail elindeki 33 F-35 savaş uçağından 11'inin inceleneceğini açıkladı. Uçakların hangara çekildiği duyurulurken diğer 22 uçağın neden incelemeye alınmadığına dair ise bilgi paylaşılmadı. ABD ve İsrail, Temmuz ayında da F-35'lerin fırlatma sistemlerindeki bir sorun nedeniyle bütün eğitim uçuşlarını durdurmuştu. ***PeyamaKurd***

Paris saldırganı yeniden hakim karşısında!

Paris'teki Ahmet Kaya Kürt Kültür Merkezi'nde üç kişinin ölümüne sebep olan saldırıyı yapan zanlı bugün sorgu hakiminin karşısına çıkacağı duyuruldu.

Sorgu hakiminin, ifadesinde "ırkçı" olduğunu kabul edip göçmenleri sevmediği için cinayetleri işlediğini itiraf eden 69 yaşındaki zanlı hakkında, silahla "adam öldürmek ve adam öldürmeye teşebbüs suçlarından" dava açması bekleniyor.

Fransa'da bazı Kürt dernekler, sorgu hakiminin "ırkçılık" suçlamasıyla değil, "terör" suçlamasıyla zanlı hakkında dava açmasını talep ederken, bu konu ülkedeki hukukçular arasında da yoğun tartışmalara sebep oluyor.

"Depresif ve intihara yatkın"

Gözaltı kararı dün kaldırılan saldırgan, sağlık sebebi gerekçe gösterilerek emniyete

bağlı bir psikiyatri kliniğine sevk edildi. Klinikte birkaç saat geçiren zanlı yeniden gözaltına alındı.

Paris savcısı Laure Beccuau saldırganın yabancılara karşı "patolojik" bir nefret duyduğunu itiraf ettiğini belirtti. Savcı Beccuau, saldırganın kendini "depresif ve intihara yatkın" biri olarak tanımladığını ve 2016'da evinde yaşadığı hırsızlık sonrası "göçmenleri ve yabancıları öldürme arzusunda" olduğunu aktardı.

